# “Bakı-2015” ilk Avropa Oyunları dünya mətbuatında




**“Bakı-2015” birinci Avropa Oyunları dünyanın kütləvi informasiya vasitələrində misli görünməmiş əks-səda doğurdu. Avropa İttifaqının (“commonspace.eu”), Türkiyənin (“Sabah”, “Cihan”), Amerika Birləşmiş Ştatlarının (“Washinqton Post”, “Bostonherald” Getty”, “İmages”), Almaniyanın “Deutsches-sport-tabzeichen.de”, “Berliner tageszeitunq”, “Stuttgarter Zeitug”, “Sport1”, “Badische Zeitung”), Fransanın (“Equpe 21”, “BFM”, “www.lequipe.fr”, “www.francsjeux.com”, Böyük Britaniyanın (“BBC”, “Eveninq Standard”, “Teleqraph”), Rusiyanın (“Moskovskiy Komsomolets”, “Komersant”), İrlandiyanın (“irihtimes.com”, “www.sportsnews-ireland.com”), Norveçin (“CNN”, “NOS”), Pakistanın (“Pakistan in the world”), Monteneqronun (“Viyesti”) kütləvi informasiya vasitələri Avropa Oyunlarını xüsusi diqqətlə izləmiş, ətraflı şərhlər vermişlər. Bakıda olan xarici jurnalistlər öz ölkələrinin KİV-lərinə göndərdikləri operativ məlumatlar və fotogörüntülər çoxtirajlı qəzetlər, agentliklər, televiziya kanalları, saytlar vasitəsilə yayılmış, milyonlarla oxucu və tamaşaçının nəzərinə çatdırılmışdı.**

Xarici ölkə jurnalistləri birinci Avropa Oyunlarından heyranlıqla danışırlar. Onlar yazırlar: “İdman məmurları deyirlər ki, avropalıların öz olimpiadası haqqında arzuları axır ki, çin oldu”. Burada Avropanın 50 ölkəsini təmsil edən 6 mindən çox idmançı, 20 idman növü, o cümlədən Olimpiya proqramına daxil olmayan sambo, karate, stritbol və çimərlik futbolu yarışları nəzərdə tutulur.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki deyir: “Olimpiya oyunlarının rəmzi olan beş halqadan yalnız bizə, Avropaya aid halqaya müvafiq yarışlar yoxdur. Afrika, Asiya, Panamerika oyunları, Okeaniya Birliyi Oyunları keçirilir, Avropada isə indiyə qədər qitə oyunları yox idi. Bu, həm gülməli, həm də qəribədir. Bunu çoxdan etmək lazım idi. Sevinirik ki, nəhayət, bizim Olimpiya halqamız da öz yerini tutacaq”.

Atletlər kəndi ayrı-ayrı ölkələrdən gələn idmançılar üçün elitar yaşayış kompleksini xatırladır. 68 min tamaşaçı tutan stadionda təntənəli, misli görünməmiş açılış olacaqdır. “Bakı Xəzər dənizinin sahilində yerləşir və Qafqazın ən inkişaf etmiş şəhəridir”.

Azərbaycanda bir neçə telekanal və radiostansiya, 50 informasiya agentliyi, 200-dən çox qəzet fəaliyyət göstərir. Ölkədə müxalifət qəzetləri azad şəkildə və ən çox tirajla nəşr olunur. Əhalinin 70 faizi internetə məhdudiyyəti olmadan çıxa bilir. İndiyə qədər heç bir jurnalist peşə səbəblərinə görə həbs edilməyib”.

Alman məşqçisi Stefan Saueresinq yazır: “Bakı möhtəşəm şəhərdir. Mən bir neçə il əvvəl də bu şəhərdə olmuşdum. Bu dəfə Bakı məni daha çox heyran etdi”.

Almaniya Milli Olimpiya Komitəsinin sədri Mixail Vesper “Sport1” telekanalına müsahibəsində iyunun 12-də Bakıda açılışı olacaq birinci Avropa Oyunlarının əhəmiyyətindən danışıb.

“Ev sahibi Azərbaycan ilk Avropa Oyunlarını milli prioritet səviyyəsində bir tədbir kimi qeyd edir və Oyunların uğurlu təşkili üçün mümkün olan hər şeyi edir. Avropada da Oyunlara böyük maraq var. Hər kəs Oyunları həyəcanla gözləyir. Avropa Oyunlarına Olimpiya idman növləri də daxildir. Bizi maraqlı idman mübarizəsi gözləyir”.

Fransanın “Fiqaro” qəzeti Bakının bütün idman arenalarına xoş əhval-ruhiyyə hökm sürdüyünü bildirir. Azərbaycanlı idmançıların bütün yarışlarda yüksək nəticələr göstərdiyini qeyd edir. Fransanın “www.iequipe.ir” saytında deyilir: “Yeni bir ənənənin təməlinin qoyulması bu idman tədbirinin özünəməxsusluğu sayıla bilər. Çünki artıq Avropa hər 4 ildən bir Olimpiada keçirməlidir. Qafqazın iqtisadi və mədəni mərkəzinə çevrilən Bakı bu yolla həm də beynəlxalq tədbirlərə ev sahibliyi edə biləcəyini bir daha sübuta yetirib”.

Fransanın BFM televiziyasının saytında yerləşdirilən “Avropa Oyunları: Azərbaycanda idmanın şahı güləşdir” məqaləsində deyilir: “Birinci Avropa Oyunlarının keçirildiyi Azərbaycanda güləş idmanın şahı hesab olunur. Artıq bir neçə qızıl medala sahib olan Azərbaycan idmançıları zəngin idman ənənələrinə malik bir ölkədə məhşurlaşdılar. Tarixdə ilk Avropa Oyunlarının açılış mərasimi yeni tikilən 68 min nəfərlik stadionda baş tutdu. Lakin bu günlər idmanın ürəyi yeddi min tamaşaçı tutumu olan Heydər Əliyev adına İdman Sarayında döyünürdü. Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan bu sarayda 3 gündür ki, yerli idmançılar tarix yazırlar. İki gün davam edən yunan-Roma güləşində azərbaycanlı atletlər ikisi qızıl, ikisi gümüş, ikisi bürünc olmaqla 6 medala sahib oldular. Ölkənin idman tarixində ən böyük uğura məhz fərdi idman növləri ilə məşğul olanlar imza atıblar”.

Türkiyənin “Cihan” xəbər agentliyinin ingilis dilli versiyasının saytında yerləşdirdiyi məqalədə birinci Avropa Oyunlarının açılış mərasimi barədə deyilir: “Bütün dünya Bakıda möhtəşəm açılış mərasimini izlədi. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Timoslav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov və müxtəlif ölkələrin liderləri, rəhbər şəxsləri iştirak ediblər. Həmçinin dünyanın və Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri də möhtəşəm mərasimi izləyənlər arasında olublar. Bakı Olimpiya Stadionunda açılış mərasiminin təşkilinə 28 ölkədən 300 yaradıcı qrup, 34 ölkədən 1000-dən çox insan cəlb olunub. Həmçinin minlərlə könüllü də bu prosesdə mühüm rol oynayıblar”.

Məqalədə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin açılış mərasimindəki çıxışına istinad edilərək diqqətə çatdırılıb ki, bu möhtəşəm tədbir Avropa idmanının ən parlaq anıdır. “İlk Avropa Oyunları Olimpiya hərəkatının itmiş beşinci halqasını tamamladı”.

Britaniyanın “Evening Stantart” qəzeti 8 səhifəsini Avropa Oyunlarına həsr edib. Məqalələrin birində “Bakı-2015”in indiyədək keçirilən Olimpiya Oyunlarından heç də geri qalmayacağı diqqətə çatdırılır.

Məqalədə “Bakı-2015” birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin fikirlərinə yer verilir. O, “Bakı-2015”in Avropa qitəsi üçün mühüm tarixi hadisə olduğunu vurğulayır. S.Kleq Avropa Oyunlarından sonra artıq dünya idman xəritəsində Azərbaycanın xüsusi yerinin olacağını bildirir.

İrlandiya saytında jurnalist O’Riosdan Bakının təbii gözəlliyinə heyranlıqla yazır: “Heydər Əliyev Hava Limanından Media kəndinə qədər yolda görünən mənzərənin gözəlliyi, yolun kənarlarında salınmış yaşıllıqlar təsvir olunub: Azərbaycan başdöndürücü sürətlə inkişaf edir. Günəşin şuaları altında bərq vuran Xəzər dənizinin sahilində yerləşən Bakı gözəlliyi ilə insanların gözünü qamaşdırır. Bir müddət əvvəl şəhərin mirvarisi sayılacaq Bakı Olimpiya Stadionu tikilib istifadəyə verilib”.

Rusiyanın “Kommersant” qəzeti əlavəsinin növbəti buraxılışını Avropa Oyunlarına həsr etmişdi. Azad Rəhimovun “Oyunlar ölkənin həyatını dəyişəcək”, Aleksey Dospexovun “Mersi Bakı”, Viktor Petrovun “Yüksək əyarlı idman”, Anton Borovoyun “Mavi Xəzərin sahilində” və digər məqalələr dərc edilmişdir. “Bakı-2015” birinci Avropa Oyunlarının Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov məqaləsində yazır:

“Azərbaycan hökuməti idmanı ölkənin iqtisadi və sosial inkişafının mühüm tərkib hissəsi hesab edir. Oyunların Bakıda keçirilməsi Prezident İlham Əliyevin Avropada Azərbaycanın tutduğu mövqeyə baxışını əks etdirir və ölkənin sağlam həyat tərzinin təbliğinə yönəldilmiş siyasətinin tərkib hissəsidir”.

“Bakı-2015” Oyunları Azərbaycanın zəngin mədəni irsi olan bir ölkənin özünəməxsusluğunu əks etdirəcək. Oyunlar xüsusi estetik gözəlliyi ilə fərqlənir. Bu işdə Azərbaycanın birinci xanımı və “Bakı-2015” Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsinin rəhbəri Mehriban Əliyevanın misilsiz rolu vardır. O, Oyunlar çərçivəsində müxtəlif mədəni proqramların, o cümlədən Oyunların açılışı və bağlanışı mərasimlərinin təşkilində şəxsən iştirak edir. Geyimlərin, medalların və talismanların dizaynına onun xüsusi dəstxətti əks olunub”. Nazirin fikrincə, birinci Avropa Oyunlarının keçirilməsinə yönəldilən investisiyalar Azərbaycanın 23 illik müstəqilliyi dövründə onun tərəqqisini nümayiş etdirməyə imkan verəcək. A.Rəhimov yazır: “Oyunların keçirilməsi üçün mövcud olan, yaxud bundan əvvəl tikintisi planlaşdırılmış infrastrukturdan maksimum istifadə edildiyi nəzərə alınarsa, “Bakı-2015” Oyunlarına sərf olunan xərclər əslində minimumdur. Biz vəsaitdən ağılla istifadə etmişik, əsas diqqəti milli əmək resurslarının inkişafına yönəltmişik. Bütün bunları nəzərə alaraq möhkəm əminik ki, “Bakı-2015” Oyunları uzunmüddətli perspektivdə ölkəmizə çox böyük fayda gətirəcək”.

Məlum olduğu kimi, ilk Avropa Oyunlarının keçirildiyi bir vaxtda Almaniyanın bir sıra qəzetlərində cahanşümul tədbirə qarşı əsassız hücumlar olmuşdur. Almaniyanın nüfuzlu qəzeti “Berliner Tageszeitung” yazır:

“Təəssüf ki, bu, alman mediasının tənqidindən çox, Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasıdır. Halbuki, Azərbaycana qarşı insan haqları ilə bağlı ittihamların irəli sürülməsinə heç bir səbəb yoxdur. Azərbaycanın iqtisadi inkişafı və Avropa Oyunlarının aktuallığı fonunda ölkəyə qarşı qərəzli mövqedən çıxış etmə kimi məsələlərin meydana atılması da Oyunların əhəmiyyətinə öz təsirini göstərir. İlk Avropa Oyunlarını, ölkə haqqında reallıqları, onun sürətli iqtisadi inkişafı barədə xəbərləri dünya ictimaiyyətinə obyektiv və dolğun şəkildə çatdırmaq məqsədilə bütün xarici jurnalistlər və eyni zamanda, alman jurnalistlər Azərbaycan Respublikasında akkreditə olunublar”.

Məqalədə Azərbaycana qarşı söz azadlığının boğulması ittihamlarının da əsassız olduğu xüsusi vurğulanıb. “Berlinertageszeitung” yazır: “Söz və informasiya azadlığı Azərbaycan Konstitusiyasında təsbit olunub. Ölkədə çoxsaylı radio və televiziya ilə yanaşı, Azərbaycan, rus və ingilis dillərində çap olunan yüzlərlə qəzet, həmçinin 50-dən çox xəbər agentliyi fəaliyyət göstərir. Bununla yanaşı, müxalifət qəzetləri olan “Yeni Müsavat” və “Azadlıq” gündəlik olaraq ölkədə ən böyük tirajla çap edilir. Əhalinin 70 faizi internet istifadəçisidir. İnternet resurslarına heç bir məhdudiyyət yoxdur. Sərbəst toplaşmaq azadlığı təmin olunur. Azərbaycanda hər hansı icazəsiz nümayişlər dinc və insidentsiz başa çatır”. Həmçinin qeyd olunur ki, Azərbaycanda heç bir şəxs jurnalistlik, yaxud siyasi fəaliyyətinə görə həbs olunmayıb.

“Azərbaycan Qərb demokratiyasında olduğu kimi, jurnalistlərə qanunvericiliyə əsasən toxunulmazlıq statusu verib. Bəzi blogger və jurnalistlərin iddia etdiyinin əksinə olaraq, bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da hər hansı cinayət əməli cəzasız qalmır”, “Azərbaycan hökuməti əhalinin iqtisadi imkanlardan yararlanmasını yüksək dərəcədə təmin edir. Bu, neft və qaz hasilatından əldə olunan gəlirlərin bölüşdürülməsində də öz əksini tapıb. Dünya İqtisadi Forumunun son hesabatında Azərbaycan dünyada iqtisadi rəqabət qabiliyyətliliyinə görə 40-cı pillədə qərarlaşıb. Bu ölkədə keçirilən ilk Avropa Oyunlarının idman tədbiri olaraq siyasiləşdirilməsi əsassızdır”.

**(davamı növbəti sayımızda)**

**“Respublika”.**